# Huşə

*Peyğəmbərin Kitabı*

***Giriş***

Huşə peyğəmbər İsrailin şimal padşahlığının paytaxtı Samariyada və'z edirdi. O, miladdan əvvəl 721-ci ildə Aşşurlular tərəfindən zəbt edilən Samariyanın süqutundan öncə yaşamışdı. Huşə xüsusilə İsrail xalqının bütpərəstliyinə və Allaha sadiq qalmamasına görə narahat idi. İsrail xalqı bütpərəstliyə tərəf dönmüşdü. Huşə öz uğursuz nikahının nümunəsində İsrailin Allaha xəyanət etməsini cəsarətlə təsvir edir. Huşənin arvadı Qomer ərinə vəfasız olub onu tərk etdiyi kimi Allahın xalqı da vəfasız çıxıb Ondan üz döndərmişdi. Buna görə də İsrail cəzasını alacaq. Amma Allahın məhəbbəti üstün olacaq:

«Ey İsrail, səni necə təslim edim?…
Köksümdə ürəyim alt-üst oldu,
Mərhəmət hisslərim alovlandı» (11:8).

Huşə dövrünün ictimai-siyasi vəziyyəti barədə də danışır. O, İsrailin başqa dövlətlərə deyil, Allaha güvənməsini istəyir.

***Kitabın məzmunu:***

Huşənin nikahı və ailəsi 1:1-3:5
Rəbbin İsraili məzəmmət etməsi 4:1-13:16
Rəbbin İsraili tövbəyə çağırması və və'dlər verməsi 14:1-9

1 1 Bu, Yəhuda padşahları Uzziya,
Yotam, Axaz, Xizqiya və İsrail padşahı
Yoaş oğlu Yarovamın dövründə Beeri oğlu
Huşəyə nazil olan Rəbbin sözüdür.

### *Huşənin arvadı və uşaqları*

2 Rəbb Huşənin vasitəsilə danışmağa
başlayarkən ona belə dedi: «Get xəyanətkar
bir arvad al və onun kimi xəyanətkar
uşaqların olsun, çünki ölkənin xalqı Rəbdən
üz döndərərək Ona hədsiz xəyanət edir».
3 Huşə gedib Divlayimin qızı Qomeri özünə
arvad aldı. Qomer hamilə olub ona bir oğul
doğdu. 4 Rəbb Huşəyə dedi: «Onun adını
İzreel qoy, çünki tezliklə Mən İzreeldə
tökülən qanın əvəzini Yehunun nəslindən
alacağam və İsrail nəslinin padşahlığına son
qoyacağam. 5 Həmin gün İzreel vadisində
İsrailin kamanını qıracağam».
6 Qomer yenə hamilə olub bir qız doğdu.
Rəbb Huşəyə dedi: «Onun adını Lo-Ruxama[1]
qoy, çünki Mən daha İsrail nəslinə mərhəmət
edib onu bağışlamayacağam. 7 Yəhuda nəslinə
isə Mən – onların Allahı Rəbb mərhəmət
göstərəcəyəm, onları xilas edəcəyəm, ancaq
nə kaman, nə qılınc, nə müharibə, nə atlar, nə
də süvarilərlə xilas edəcəyəm».
8 Qomer Lo-Ruxamanı süddən kəsən kimi
yenə hamilə olub bir oğul doğdu. 9 Rəbb dedi:
«Onun adını Lo-Ammi[2] qoy, çünki siz Mənim
xalqım deyilsiniz, Mən də sizin Allahınız
olmayacağam.
10 Ancaq İsrail övladları dəniz qumu kimi
saysız-hesabsız olacaq. Onlara "siz Mənim
xalqım deyilsiniz" deyilən yerdə "siz var olan
Allahın övladlarısınız" deyiləcək. 11 Yəhuda
və İsrail övladları bir yerə yığılıb özlərinə
vahid başçı tə'yin edəcək. Onlar ölkədən
çıxacaq, çünki İzreel[3] günü möhtəşəm bir gün
olacaq.

2 1 Qardaşlarınızı "xalqım", bacılarınızı
isə "mərhəmət tapmış" deyə çağırın.

### *İsrailin xəyanəti*

2 Qınayın siz ananızı, qınayın,
Çünki o Mənim arvadım deyil,
Mən də onun əri deyiləm.
Qoy üzündə görünən fahişəliyi,
Qoynunda olan xəyanəti atsın.
3 Yoxsa onu çıl-çılpaq soyundurub
Lüt, anadangəlmə edəcəyəm.
Mən onu səhra, quru torpaq kimi
edəcəyəm,
Susuzluqdan öldürəcəyəm.
4 Onun balalarına da rəhm etməyəcəyəm,
Çünki onlar da xəyanət övladıdır.
5 Onların anası zina etdi.
Onlara hamilə qalan qadın rəzillik etdi,

---

***1:1** – 2Pad. 15:1-7; 2Saln. 26:1-23*
***1:1** – 2Pad. 15:32-38; 2Saln. 27:1-8*
***1:1** – 2Pad. 16:1-20; 2Saln. 28:1-27*
***1:1** – 2Pad. 18:1-20:21; 2Saln. 29:1-32:33*
***1:1** – 2Pad. 14:23-29*

***1:4** – 2Pad. 10:11*
[1] **1:6** *Lo-Ruxama* – ibrani dilində *mərhəmət tapmamış.*
[2] **1:9** *Lo-Ammi* – ibrani dilində *xalqım deyil.*
***1:10** – Rom. 9:26*
[3] **1:11** *İzreel* – ibrani dilində *Allah əkir* mə'nasında olub *inkişaf və rifah* deməkdir.

Çünki dedi: "Oynaşlarımın dalınca
gedəcəyəm,
Axı çörəyimi, suyumu, yunumu,
kətanımı,
Zeytun yağımı və içkimi verən onlardır".

6 Buna görə də onun yolunu qanqallarla
kəsib
Önünə hasar çəkəcəyəm.
Öz yolunu tapa bilməyəcək.
7 Oynaşlarının dalınca gedəcək,
Ancaq onlara çatmayacaq.
Onları axtaracaq,
Ancaq tapmayacaq.
O zaman deyəcək:
"Qoy öz əvvəlki ərimin yanına qayıdım,
Çünki o vaxt halım indikindən yaxşı idi".
8 Amma o bilmirdi ki,
Ona taxılı, təzə şərabı,
Zeytun yağını verən Mənəm.
Baal bütü üçün sərf etdikləri
Qızıl-gümüşü çoxaldan Mənəm.
9 Buna görə də öz vaxtında taxılımı,
Öz mövsümündə təzə şərabımı geri
alacağam.
Onun çılpaqlığını örtmək üçün verdiyim
Yunu və kətanı əlindən alacağam.
10 İndi oynaşlarının önündə
Onun ayıbını üzə çıxaracağam.
Kimsə onu əlimdən qurtara bilməyəcək.
11 Onda olan bütün şadlıqlara,
Bayramlara, Təzə Ay mərasimlərinə,
Şənbə günlərinə və bütün təntənələrə son
qoyacağam.
12 Onun meynələrini və əncir ağaclarını
məhv edəcəyəm.
O bunlar barədə deyirdi:
"Bu, oynaşlarımın mənə verdiyi
muzddur".
Bağlarını tikanlığa çevirəcəyəm,
Vəhşi heyvanlara yem olacaqlar.
13 Baal bütlərinə buxur yandırdığı günlər
üçün
Onu cəzalandıracağam.
O vaxt halqalar və cəvahiratla özünü
bəzəyərək
Oynaşlarının dalınca getmiş,
Məni isə unutmuşdu»
Rəbb belə bəyan edir.

14 «Amma Mən onu dilə tutub
Səhraya aparacağam,
Onun ürəyincə olan sözlər deyəcəyəm.
15 Orada ona üzüm bağları verəcəyəm,
Akor[4] vadisini ümid qapısına
çevirəcəyəm.
Cavanlıq günlərində olduğu kimi,
Misir torpağından çıxdığı gün kimi
Orada nəğmə oxuyacaq».
16 Rəbb bəyan edir: «Həmin gün
Mənə "ərim" deyəcəksən,
Artıq "ağam"[5] deməyəcəksən.
17 Baal bütlərinin adını dilindən
siləcəyəm,
Onların adı bir də yada salınmayacaq.

18 O gün sənin asayişin üçün
Çöl heyvanları, göy quşları və
Yerdə sürünənlərlə əhd kəsəcəyəm.
Ölkədən kamanı, qılıncı,
Müharibəni götürəcək,
Səni əmin-amanlıqda yatıracağam.
19 Səni əbədi olaraq Özümə
nişanlayacağam,
Salehlik, ədalət, məhəbbət və
mərhəmətlə
Səni özümə nişanlayacağam.
20 Səni sədaqətlə Özümə nişanlayacağam,
Sən də Rəbbi tanıyacaqsan».

21 Rəbb bəyan edir: «O gün hay
verəcəyəm,
Göylərə hay verəcəyəm,
Onlar da yerə hay verəcək.
22 Yer isə taxıla, təzə şəraba və
Zeytun yağına hay verəcək,
Onlar da İzreelə hay verəcək.
23 Xalqımı ölkədə Özüm üçün əkəcəyəm,
"Mərhəmət tapmamış" dediyimə
Mərhəmət edəcəyəm.
"Xalqım deyil" dediyimə
"Xalqımsan" deyəcəyəm.
O isə Mənə "Allahımsan" deyəcək».

### *Huşə və vəfasız qadın*

3 1 Rəbb mənə dedi: «Get yenə də
aşnasının sevdiyi zina edən qadını sev,
necə ki Rəbb İsrail övladlarını sevir, onlarsa
başqa allahlara üz tutur və bunlara təqdim
edilən üzüm kökələrini sevir». 2 Mən də

---

***2:15** – Yeşua 7:24-26*
[4] **2:15** *Akor* – ibrani dilində *əziyyət.*
[5] **2:16** *Ağam* – ibrani mətnində *Baali* olub *mənim Baalım* deməkdir.
***2:23** – Rom. 9:25; 1Pet. 2:10*

qadını özüm üçün on beş gümüşə və bir yarım
xomer arpaya satın aldım. 3 Ona dedim:
«Uzun müddət mənim yanımda qal, başqa bir
kişi ilə olub zina etmə. Mən də səninlə belə
rəftar edərəm. 4 Ona görə ki İsrail övladları
uzun müddət padşah və başçı, qurban və
müqəddəs daş, efod və ev bütləri olmadan
yaşayacaq. 5 Sonra İsrail övladları dönüb
özlərinin Allahı Rəbbi və padşahı Davudu
axtaracaq. Son günlərdə lərzə içində Rəbbə və
Onun xeyirxahlığına doğru yönələcəklər».

***Rəbbin İsraili məzəmmət etməsi***

4 1 «Ey İsrail övladları, Rəbbin sözünü eşidin,
Çünki bu ölkədə yaşayanları
Rəbb ittiham edir.
Sədaqət, məhəbbət, Allahı tanımaq
Bu yerdə yox olub.
2 Lə’nət, yalan, qətl, oğurluq və zina
Hər yerə yayılıb.
Qoluzorluluq edərək
Qan üstünə qan tökürlər.
3 Bundan ötrü ölkə yas tutur,
Orada yaşayan hər kəs bezib.
Həmçinin çöl heyvanları, göy quşları,
Hətta dənizdəki balıqlar da məhv olur.

4 Ancaq heç kəs dava etməsin,
Heç kəs başqasını təqsirləndirməsin,
Çünki mənim davam səninlədir, ey kahin.[6]
5 Sən gündüz büdrəyəcəksən,
Peyğəmbər də gecə səninlə birgə.
Sənin ananı[7] məhv edəcəyəm.
6 Xalqım biliksizlikdən məhv oldu.
Sən biliyi rədd etdiyin üçün
Mən də səni rədd edəcəyəm ki,
Bir daha Mənə kahinlik etməyəsən.
İndi ki öz Allahının qanununu unutdun,
Mən də sənin balalarını unudacağam.
7 Kahinlər nə qədər çoxaldısa,
Mənə qarşı o qədər çox günah etdi.
Onların izzətini rüsvayçılığa çevirəcəyəm.[8]
8 Xalqının günahı ilə bəslənirlər,
Onların qəbahətinə can atırlar.
9 Xalqın başına gələn
Kahinin də başına gələcək.
Tutduqları yol üçün onları cəzalandıracağam.
Əməllərinin əvəzini onlara ödəyəcəyəm.
10 Yeyəcəklər, amma doymayacaqlar,
Fahişəlik edəcəklər, amma çoxalmayacaqlar,
Çünki onlar Rəbbi tərk edib
Başqa allahlara könül verdi.

11 Zina, köhnə və təzə şərab
Onların ürəklərini cəlb edib.
12 Xalqım ağacdan olan əşyaya sual verir,
Əsalarından cavab alır,
Çünki xəyanət ruhu onları azdırdı.
Özlərinin Allahından ayrılıb xəyanət etdilər.
13 Dağların başında qurban kəsirlər,
Təpələrdə palıd, ağcaqovaq və yabanı püstə ağacı altında
Kölgələri gözəl olduğu üçün buxur yandırırlar.
Buna görə də qızlarınız fahişəlik edir,
Gəlinləriniz də zinakardır.
14 Fahişəlik edən qızlarınızı,
Zina edən gəlinlərinizi cəzalandırmayacağam.
Çünki kişiləriniz fahişələrlə oynaşır,
Mə’bəd fahişələri ilə birgə qurban kəsir.
Dərrakəsiz xalq məhv olacaq.

15 Ey İsrail, sən xəyanət etsən də,
Heç olmasa Yəhuda təqsirkar olmasın.
Qilqala getməyin,
Bet-Avenə çıxmayın.
“Var olan Rəbbin haqqı üçün”
Deyib and içməyin.
16 Bəli, İsrail inadkar bir düyə kimi inad etdi.
İndi Rəbb onları
Otlaqda quzu otaran kimi necə otarsın?
17 Efrayim bütlərindən yapışdı,
Burax onu!
18 Onlar içkiləri qurtarandan sonra
Hələ pozğunluq da edir.
Onların başçıları rüsvayçılığı çox sevir.
19 Külək onları qanadlarına saracaq,
Qurbanlarından ötrü utanacaqlar.

***İsrailin cəzası***

5 1 Ey kahinlər, bunu eşidin!
Ey İsrail nəsli, diqqətlə dinləyin!

[6] **4:4** *Mənim davam səninlədir, ey kahin* yaxud *xalqın kahinlə çəkişənlərə bənzəyir.*
[7] **4:5** *Sənin anan* – İsrail xalqı nəzərdə tutulur.
[8] **4:7** *Onların izzətini rüsvayçılığa çevirəcəyəm* – əksər ibrani mətnlərində *Mənim izzətimi rüsvayçılığa çevirdilər.*

Ey padşah sarayında olanlar, qulaq verin!
Sizin barənizdə hökm çıxarıldı,
Çünki siz Mispada bir tələ,
Tavor dağına sərilmiş bir tor oldunuz.
2 Asilər adam öldürməklə məşğuldur.
Amma Mən onların hamısını
cəzalandıracağam.
3 Efrayimi tanıyıram,
İsrail Məndən gizli deyil,
Çünki indi sən fahişəlik edirsən, ey
Efrayim,
İsrail də murdarlanıb.
4 Əməlləri qoymur ki, onlar
Özlərinin Allahına tərəf dönsün,
Çünki içlərində xəyanət ruhu var,
Rəbbi də tanımırlar.
5 İsrailin qüruru özünə qarşı şəhadət edir.
İsraillə Efrayim
Günahlarından ötrü büdrəyib-yıxılır.
Yəhuda da onlarla birgə yıxılır.
6 Qoyun-keçi, mal-qara qurban edərək
Rəbbi axtarmağa gedəcəklər,
Amma tapmayacaqlar,
Çünki Rəbb onları tərk etdi.
7 Onlar Rəbbə xəyanət etdi,
Çünki bic uşaqlar doğdu.
İndi Təzə Ay mərasimi olanda
Onlar tarlaları ilə birlikdə məhv olacaq.

8 Giveada şeypur çalın,
Ramada kərənay çalın,
Bet-Avendə car çəkin,
Düşmən arxandadır, ey Binyamin!
9 Efrayim cəza günündə viran olacaq,
Bu yəqin sözü İsrail qəbilələri arasında
bəyan edirəm.
10 Yəhuda başçıları
Sərhəd daşı dəyişənlərə bənzəyir.
Qəzəbimi sel kimi onların üstünə
tökəcəyəm.
11 Efrayim zülm gördü,
Hökm ilə əzildi,
Çünki bilə-bilə
Boş şeylərin dalınca getdi.
12 Mən Efrayimlilərə qarşı güvə,
Yəhuda nəsli üçün kif olacağam.
13 Efrayim xəstəliyini,
Yəhuda yarasını gördü.
Efrayim Aşşura getdi,
Böyük padşahdan kömək istədi,
Amma o sizə şəfa verməz,
Yaranızı sağaltmaz.
14 Bəli, Mən Efrayimlilərə qarşı bir şir,
Yəhuda nəsli üçün cavan aslan olacağam.
Mən, Mən onu parçalayıb gedəcəyəm,
Sürüyəcəyəm və kimsə əlimdən
qurtarmayacaq.
15 Sonra qayıdıb Öz məskənimə
gedəcəyəm,
O vaxtacan ki özlərini günahkar sayaraq
Mənim hüzurumu axtaracaqlar.
Bəlaya düşəndə həsrətlə Məni
axtaracaqlar».

### *İsrailə çağırış*

6 1 «Gəlin Rəbbə qayıdaq.
O bizi parçaladı,
O da bizə şəfa verəcək.
O bizi yaraladı,
O da yaramızı sarıyacaq.
2 İki gün sonra bizi dirildəcək,
Üçüncü gün ayağa qaldıracaq,
Onun hüzurunda yaşayacağıq.
3 Gəlin Rəbbi tanıyaq, tanımağa sə'y
edək.
O hökmən dan yeri kimi doğacaq,
Yağış kimi,
Torpağı sulayan yaz yağışı kimi
Yanımıza gələcək».

4 Allah deyir:
«Ey Efrayim, sənə nə edim?
Ey Yəhuda, bəs sənə nə edim?
Çünki məhəbbətiniz səhər dumanı,
Erkən uçub gedən şeh kimidir.
5 Buna görə də sizi peyğəmbərlər
vasitəsilə parçaladım,
Ağzımdan çıxan sözlərlə öldürdüm.
Sizin üzərinizdə hökmüm
Şimşək kimi parıldayır.
6 Çünki Mən qurban deyil,
Məhəbbət istəyirəm.
Yandırma qurbanlarından çox
Allahı tanımağınızı istəyirəm.
7 Ancaq onlar Adəm kimi əhdi pozdu,
Orada mənə xəyanət etdi.
8 Gilead şər adamların şəhəridir,
Qan izləri ilə doludur.
9 Quldur dəstələri necə insan üçün
pusquya yatırsa,
Kahin dəstələri də Şekemə gedən yolda
adam öldürür,
Bəli, xəbislik edir.

---

***6:6** – Mat. 9:13; 12:7*

10 İsrail nəslində qorxunc bir şey gördüm,
Efrayim fahişəliyə batmış,
İsrail murdarlanmışdır.
11 Ey Yəhuda, sənin üçün də
Bir biçin günü tə’yin edildi.

Mən xalqımı sürgündən qaytaranda,
7 1 İsrailə şəfa vermək istəyəndə
Efrayimin günahları,
Samariyanın pislikləri ortaya çıxır.
Çünki hiylə ilə davranırlar.
Evlərə oğru girir,
Küçədə quldur soyğunçuluq edir.
2 Ürəklərində düşünmürlər ki,
Mən onların bütün pisliklərini yada
salıram.
İndi günahları onları dövrələyib və
Gözümün önündədir.

3 Padşahı pislikləri ilə,
Başçıları yalanları ilə sevindirirlər.
4 Hamısı zinakardır,
Yoğrulan xəmir acıyana qədər
Təndirçinin odunu qurdalamağa ehtiyac
görmədiyi
Soba kimi şəhvətlə yanırlar.
5 Padşahımızın ad günündə
Başçılar şərabın atəşindən xəstələndi,
Padşah da istehzaçılarla əl-ələ verdi.
6 Pusquda yatarkən
Ürəkləri soba kimi qızar.
Qəzəbləri bütün gecə için-için yanar,
Səhər də alovlu atəş kimi parlayar.
7 Onların hamısı soba kimi qızmışdır.
Öz hakimlərini həlak etdilər,
Bütün padşahları yıxıldı.
Heç kəs Məni çağırmır.

8 Efrayim başqa xalqlara qarışır,
Efrayim bir üzü qızarmayan kökəyə
bənzər.
9 Onun gücünü özgələr yedi,
O isə bilmir,
Saçına dən düşüb,
O isə bilmir.
10 İsrailin qüruru özünə qarşı şəhadət edir.
Ancaq yenə də özlərinin Allahı Rəbbə
tərəf dönmür,
Onu axtarmırlar.

11 Efrayim səfeh və dərrakəsiz bir
göyərçin kimidir.
Gah Misirliləri çağırır,
Gah Aşşura gedirlər.
12 Onlar gedən zaman
Mən onların başına torumu atacağam.
Göydəki quşlar kimi
Onları vurub yerə salacağam.
Məclislərində e’lan olunduğu kimi
Onları cəzalandıracağam.

13 Vay onların halına!
Çünki Məndən uzaqlaşdılar.
Başlarına bəla gəlsin!
Çünki Mənə qarşı üsyan etdilər.
Mən onları qurtarmaq istəyirdim,
Onlarsa Mənə böhtan deyir.
14 Ürəkdən Mənə fəryad etmirlər,
Ancaq yataqlarının içində ulayırlar.
Taxıl və təzə şərab üçün özlərini
yaralayırlar,
Amma Məndən üz döndərirlər.
15 Mən onlara nəsihət verdim,
Qollarına güc verdim.
Onlarsa Mənə qarşı qəsd qurur.
16 Onlar üz tutur,
Ancaq ucalara tərəf yox.
Hədəfi əyri vuran kamana bənzəyirlər.
Dillərinin arsızlığı üzündən
Başçıları qılınca tuş gələcək.
Buna görə də Misirdə
Kinayə hədəfi olacaqlar.

### *İsrailin bütpərəstliyi*

8 1 Şeypur çalmağa hazırlaş!
Rəbbin evinin üzərinə
Düşmən qartal kimi hücum çəkir.
Çünki İsraillilər Mənim əhdimi pozdu,
Mənim qanunuma qarşı çıxdı.
2 Onlar Mənə fəryad edib deyəcək:
“Allahım, biz İsraillilər Səni tanıyırıq”.
3 İsrail yaxşılığı rədd etdi,
Düşmən onu tə’qib edəcək.
4 Məndən soruşmadan
Özlərinə padşah qoydular.
Məndən xəbər almadan
Başçılar seçdilər.
Özlərinə qızıl və gümüşlərindən
Ölümlərinə yol açan
Bütlər düzəltdilər.
5 Ey Samariya, dana bütün rədd edildi!
Mənim qəzəbim onlara qarşı alovlandı.
Nə vaxta qədər onlar pak olmayacaq?
6 Çünki bu büt İsrailin işidir,
Usta onu düzəldib,

Ona görə də Allah deyil.
Samariyadakı dana bütü
Xıncım-xıncım olacaq.

7 Onlar külək qaldırdı,
Qasırğa alacaqlar.
Sünbül bitirməyən buğda un verməz,
Versə də, yadlar onu udacaq.
8 İsrail udulmuşdur,
İndi onlar millətlər arasında
Heç kəsin bəyənmədiyi bir qab kimi
oldu.
9 Onlar tənha gəzən vəhşi eşşək kimi
Aşşur tərəfə getdi.
Efrayim muzdla özünə oynaşlar tutdu.
10 Onlar millətlər arasında muzdla oynaş
tutsalar da,
Mən indi onları bir yerə toplayacağam.
Onlar qüdrətli padşahın zülmündən
Azalmağa başlayacaq.
11 Efrayim günah təqdimi üçün
Çoxlu qurbangah tiksə də,
Bunlar onu günaha batıran qurbangahlar
oldu.
12 Mən onlar üçün çoxlu qanun yazdım,
Onlarsa bunları yad bir şey hesab etdi.
13 Mənə kəsilən qurbanlara gəlincə,
Əti Mənə qurban gətirib
Özləri yeyir.
Rəbb onlardan razı deyil.
İndi onların qəbahətlərini yada salacaq,
Günahlarına görə onları cəzalandıracaq.
Onlar Misirə qayıdacaq.
14 İsrail də Yaradanını unutdu,
Özünə saraylar qurdu.
Yəhuda da çoxlu qalalı şəhər tikdi,
Ancaq Mən onun şəhərlərinə od
göndərəcəyəm,
Qalalarını alov yeyəcək.

### *İsrailin cəzası*

9 1 Ey İsrail, başqa xalqlar kimi
Sevinib coşma,
Çünki öz Allahına xəyanət etdin.
Bütün xırmanlarda
Fahişəlik muzduna könül verdin.
2 Xırman və üzümsıxan xalqı
doydurmayacaq,
Təzə şərab onlara qismət olmayacaq.
3 Rəbbin torpağında yaşamayacaqlar,
Efrayim Misirə qayıdacaq,
Aşşurda murdar yemək yeyəcək.
4 Rəbbə təqdim olaraq şərab
tökməyəcəklər,
Qurbanları Ona məqbul olmayacaq.
Qurbanlar onlara yas çörəyi olacaq,
Onu yeyənlərin hamısı murdar olacaq.
Çörəkləri özlərinə qismət olacaq,
Amma Rəbbin evinə gətirilməyəcək.

5 Təntənəli bayramda,
Rəbbin bayram günündə nə edəcəksiniz?
6 Məhvdən qaçsalar da,
Misir onları yığacaq,
Memfis qəbrə basdıracaq.
Onların gümüş xəzinələrini gicitkən
tutacaq,
Çadırlarında qanqal bitəcək.
7 Onların cəza günləri gəldi,
Haqq-hesab günləri yetişdi.
Qoy İsrail bunu bilsin!
Təqsirlərinizin çoxluğundan,
Düşmənçiliyinizin böyüklüyündən
Peyğəmbəri əbləh,
Ruhani adamı divanə saydınız.
8 Peyğəmbər Allahımın Efrayim
üzərində qoyduğu keşikçidir.
Amma onun getdiyi hər yerdə tor
qurdular,
Allahın evində düşmənçilik var.
9 Givea günlərində olduğu kimi
Onlar böyük pozğunluğa düçar oldu.
Allah onların təqsirlərini yada salacaq,
Günahları üçün onları cəzalandıracaq.

10 Səhrada üzüm tapan kimi
Mən İsraili tapdım,
İlk dəfə məhsul verən əncir nübarı kimi
Mən atalarınızı gördüm.
Amma onlar Baal-Peora çatanda
Rüsvayçı bütlərə təslim oldu.
Özləri də sevdikləri şeylər kimi
İyrənc oldu.
11 Efrayimin cəlalı
Bir quş kimi uçub gedəcək.
Nə doğum, nə hamiləlik, nə mayalanma
olacaq.
12 Öz uşaqlarını böyütsələr də,
Balalarını əllərindən alacağam,
Onları kimsəsiz qoyacağam.

***8:13*** *– Yer. 14:10*

***9:7*** *– Luk. 21:22*
***9:9*** *– Hak. 19:1-30*
***9:10*** *– Say. 25:1-5*

Mən onları tərk etdikdə
Vay hallarına!
13 Mən gördüm ki, Efrayim
Sur şəhəri kimi gözəl bir yerdə məskən
salıb.
Amma Efrayim öz övladlarını
Qatil qabağına çıxaracaq».
14 Ya Rəbb, nə verəcəksən, ver onlara,
Onlara uşaq salan bətn, südsüz döşlər
ver!

15 Rəbb deyir: «Onlar bütün pis
əməllərini
Qilqalda edir,
Orada onlara nifrət etdim.
Etdikləri günahlardan ötrü
Onları evimdən qovacağam.
Artıq onları sevməyəcəyəm.
Bütün başçıları asidir.
16 Efrayim kəsildi,
Kökləri qurudu.
Onlar bar verməyəcək.
Əgər doğsalar da,
Bətnlərinin əziz barını Mən məhv
edəcəyəm».

17 Allahım onları rədd edəcək,
Çünki Ona qulaq asmadılar.
Millətlər arasında sərgərdan gəzəcəklər.

10 1 İsrail bir qollu-budaqlı meynədir ki,
Bol-bol bar gətirir.
Ancaq barı artdıqca
Qurbangahları da artırdı.
Torpağı bərəkətli olduqca
Daha gözəl olan müqəddəs daşları da
düzəltdi.
2 Onların ürəkləri yalanla doldu,
Günahlarına görə də cəzalanacaqlar.
Rəbb onların qurbangahlarını dağıdacaq,
Müqəddəs daşlarını sındıracaq.

3 Onda onlar deyəcək:
«Bizim padşahımız yoxdur,
Çünki biz Rəbdən qorxmadıq.
Padşahımız olsa da,
Bizə nə edəcəkdi?»
4 Əhd bağlayanda boş və'dlər verir,
Yalandan and içirlər.
Buna görə də məhkəmə işləri
Şumlanmış tarladakı zəhərli ot kimi
böyüyür.

5 Samariya sakinləri
Bet-Avendəki dana bütlərinə görə
Qorxuya düşəcək.
Onun üçün xalqı yas tutacaq.
Onun cəlalı ilə coşan kahinləri
Sürgünə aparıldığı üçün ağlayacaq.
6 Büt özü Aşşura – böyük padşaha
Hədiyyə aparılacaq.
Efrayim biabır olacaq,
İsrail aldığı məsləhətdən utanacaq.
7 Samariya və onun padşahı
Su üstündəki çubuq kimi
Axıb-gedəcək.
8 İsrailin günahı olan
Avendəki[9] səcdəgahlar yox olacaq,
Onun qurbangahlarında
Tikan və qanqal bitəcək.
O zaman dağlara «Bizi örtün!»,
Təpələrə «Üstümüzə yıxılın!»
deyəcəklər.

9 «İsrail Giveada keçirdiyi
Günlərdən bəri günah etdi.
Orada öz işlərini davam etdirdilər.
Şər adamlara qarşı müharibə
Onları Giveada yaxalamazmı?
10 Mən istədiyim zaman
Onları cəzalandıracağam.
Xalqlar onlara qarşı birləşib,
İkiqat cinayətlərindən ötrü
Onları əsir edəcək.
11 Efrayim əhliləşmiş,
Taxıl döyməyi sevən düyəyə bənzər.
Mən onun incə boynunu əsirgədim.
İndi isə Efrayimi sürdürəcəyəm.
Yəhuda yer şumlasın,
Yaqub isə dırmıq çəksin.
12 Özünüz üçün salehlik əkin,
Məhəbbət bəhərini biçərsiniz.
Dincə qoyulmuş torpağınızı şumlayın,
Çünki Rəbbi axtarmaq vaxtıdır.
Nəhayət, O gəlib üstünüzə
Salehliyin ne'mətlərini yağdıracaq.
13 Amma siz pislik əkib,
Qəbahət biçdiniz.
Yalanın bəhərini yediniz.
Çünki öz üsulunuza,

***10:8** – Luk. 23:30; Vəhy 6:16*
[9] **10:8** *Aven* – burada Bet-El, *Allahın evi* şəhəri *pislik* mə'nası verən bu sözlə adlandırılır.
***10:9** – Hak. 19:1-30*
***10:12** – Yer. 4:3*

Çoxlu cəngavərlərinizə güvəndiniz.
14 Xalqınızın içində müharibə gurultusu
qopacaq,
Bütün qalalarınız dağılacaq,
Necə ki Şalman müharibə günündə
Bet-Arbeli dağıtdı,
Ana uşaqları ilə birgə yerə çırpılıb
parçalandı.
15 Ey Bet-El, pisliyinin çoxluğu üzündən
Səninlə də belə rəftar ediləcək.
Dan ağaranda İsrail padşahı həlak olacaq.

### *Allahın İsrailə məhəbbəti*

11 1 İsrail uşaq ikən onu sevdim,
Öz oğlumu Misirdən çağırdım.
2 Peyğəmbərlər İsraili çağırdıqca
İsrail onlardan uzaqlaşdı.
Baal bütlərinə qurban kəsdilər,
Oyma bütlərə buxur yandırdılar.
3 Efrayimə gəzməyi Mən öyrətdim,
Onları qollarım üstünə aldım.
Ancaq bilmədilər ki,
Onlara Mən şəfa verdim.
4 Onları insani tellərlə,
Sevgi bağları ilə Özümə çəkdim.
Onlar üçün çənələrindən boyunduruğu
qaldıran
Bir kəs oldum,
Əyilib onlara yemək verdim.

5 Məgər Misirə qayıtmayacaqlar?
Aşşur onlara padşah olmayacaq?
Çünki onlar Mənə üz tutmaq istəmədi.
6 Şəhərlərinin içində qılınc fırlanacaq,
Onların qapı sürgülərini qıracaq.
Fitnələri üzündən onları yeyib-
qurtaracaq.
7 Xalqım Məndən üz döndərməyi qərara
alıb.
Allah-Taalanı çağırsalar da,
Onları heç vaxt ucaltmayacaq.

8 Ey Efrayim, səni necə əldən verim?
Ey İsrail, səni necə təslim edim?
Admaya etdiyimi sənə necə edim?
Səni necə Sevoyim kimi edim?
Köksümdə ürəyim alt-üst oldu,
Mərhəmət hisslərim alovlandı.
9 Mən qızğın qəzəbimlə rəftar etmərəm,
Efrayimi artıq məhv etmərəm.
Çünki Mən Allaham, insan deyiləm,
Aranızda Müqəddəs Olanam.
Qəzəblə üzərinizə gəlmərəm.
10 Onlar aslan kimi nə’rə çəkən
Rəbbin arxasınca gedəcək.
O nə’rə çəkəndə
Övladları qərbdən titrəyərək gələcək.
11 Misirdən quşlar kimi,
Aşşur ölkəsindən göyərçinlər kimi
Titrəyərək gələcəklər.
Onları evlərində sakin edəcəyəm»
Rəbb belə bəyan edir.

### *İsrailin günahı*

12 Efrayim yalanla, İsrail nəsli hiylə ilə
Ətrafımı sardı,
Yəhuda hələ də Allaha,
Sadiq Müqəddəs Olana asidir.

12 1 Efrayim yellə bəslənir,
Bütün gün şərq küləyinin dalınca
düşür.
Yalanı, qoluzorluluğu artırır.
Aşşurla saziş bağlayır,
Misirə zeytun yağı göndərir.

2 Yəhuda ilə Rəbbin davası var,
Yaqubu getdiyi yola görə cəzalandıracaq,
Əməllərinə görə əvəz verəcək.
3 O hələ ana bətnində ikən
Qardaşının topuğundan tutdu,
Böyüklük çağında Allahla güləşdi.
4 Mələklə güləşib ona üstün gəldi,
Ağlayaraq Ondan xeyirxahlıq istədi.
Allah onu Bet-Eldə tapdı.
5 Ordular Allahı Rəbb
Bizimlə orada danışdı.
O, «Rəbb» deyə anılır.
6 Buna görə də sən Allahına üz tut,
Məhəbbətə, ədalətə bağlan,
Daim Allahına ümid bağla.
7 Efrayim tacirdir,
Əlindəki aldadıcı tərəzi ilə
Aldatmağı sevir.
8 Efrayim deyir:
«Doğrudan da, mən varlandım,
Özüm üçün sərvət topladım.
Çoxlu şeylər qazansam da,

---

***11:1*** *– Çıx. 4:22; Mat. 2:15*
***11:8*** *– Qanun. 29:23*

***12:3-5*** *– Yar. 25:26*
***12:3-5*** *– Yar. 32:24-26*
***12:4*** *– Yar. 28:10-22*

Məndə günah sayılacaq bir təqsir
tapılmayacaq».

9 «Ancaq səni Misirdən çıxaran
Allahın Rəbb Mənəm.
Bayram günlərində olduğu kimi
Səni yenə öz çadırlarında
məskunlaşdıracağam.
10 Mən peyğəmbərlərlə danışdım,
Çoxlu görüntü göndərdim,
Peyğəmbərlərin dilindən məsəllər
söylədim».

11 Gilead xalqı pis xalqdır,
Doğrudan da, yaramazdır.
Qilqalda buğaları qurban kəsirlər.
Onların qurbangahları
Şumlanmış tarladakı daş qalaqları
kimidir.

12 Yaqub Aram torpağına qaçdı,
İsrail arvad üçün qul oldu,
Arvada görə qoyun otardı.
13 Rəbb İsraili bir peyğəmbər vasitəsilə
Misirdən çıxartdı,
Bir peyğəmbər vasitəsilə qorudu.
14 Efrayim Allahı bərk qəzəbləndirdi,
Tökdüyü qanı öz başına gətirəcək,
Xudavənd onun rüsvayçılığını özünə
qaytaracaq.

### *Rəbbin İsrailə qəzəbi*

13 1 Efrayim danışanda hamı titrəyirdi.
İsraildə ucalmışdı,
Amma Baala tapınıb təqsir edəndə məhv
oldu.
2 İndi günah üstünə günah edirlər,
Gümüşlərindən özlərinə tökmə bütlər,
Məharətlə düşünülmüş bütlər düzəldirlər.
Hamısı usta işidir.
«Qurban gətirən adamlar
Danaları öpsün!» deyirlər.
3 Buna görə də səhər dumanı,
Erkən uçub gedən şeh,
Xırmanda sovrulan saman çöpü,
Bacadan çıxan tüstü kimi olacaqlar.

4 «Ancaq Səni Misirdən çıxaran
Allahın Rəbb Mənəm.
Sən Məndən başqa allah tanımamalısan,
Çünki Məndən başqa xilaskar yoxdur.
5 Mən sənə çöldə, quraq torpaqlarda
göz-qulaq oldum.
6 Onları bəslədiyimə görə doydular,
Doyandan sonra onların ürəyi qürurlandı,
Buna görə də Məni unutdular.
7 Mən onlara bir aslan olacağam,
Bəbir kimi yol kənarında
Pusquda duracağam.
8 Balalarından məhrum olmuş ayı kimi
Onlara hücum çəkəcəyəm,
Ürəklərinin pərdəsini yırtacağam.
Dişi aslan kimi onları yeyib-
qurtaracağam,
Vəhşi canavar onları parçalayacaq.

9 Ey İsrail, Mənə – Köməkçinə qarşı
çıxmağın
Səni ölümə aparır.
10 İndi padşahın haradadır ki,
Bütün şəhərlərində səni xilas etsin?
Hakimlərin haradadır?
Sən ki onlar barədə
“Mənə bir padşah və başçılar ver”
deyirdin.
11 Qəzəb içində sənə padşah verdim,
Hiddətlənəndə onu apardım.

12 Efrayimin qəbahəti yığılıb,
Günahı qeydə alınıb.
13 Doğan qadının ağrıları ona çatır,
Amma o, ağılsız oğuldur.
Çünki vaxtı çatanda
Bətndən çıxmağaləngiyir.

14 Mən onları ölülər diyarının
Əlindən qurtaracağam,
Onları ölümdən xilas edəcəyəm.
Ey ölüm, bəlaların hanı?
Ey ölülər diyarı, həlakın hanı?

Gözümdə mərhəmət görünməyəcək.
15 Efrayim öz qardaşları arasında
Barlı-bəhərli olsa da,
Şərq yeli, səhradan qalxan
Rəbbin küləyi gələcək,

***12:9*** *– Lev. 23:42-43*
***12:12*** *– Yar. 29:1-20*
***12:13*** *– Çıx. 12:50-51*

***13:5-6*** *– Qanun. 8:11-17*
***13:10*** *– 1Şam. 8:5-6*
***13:11*** *– 1Şam. 10:17-24*
***13:11*** *– 1Şam. 15:26*
***13:14*** *– 1Kor. 15:55*

Onun bulağı quruyacaq,
Çeşməsinin suyu kəsiləcək.
Bütün qiymətli şeylər xəzinəsi qarət
olunacaq.
16 Samariya günahının cəzasını çəkəcək,
Çünki Allahına asi oldu.
Onlar qılıncdan həlak olacaq.
Balaları yerə çırpılıb parçalanacaq,
Hamilə qadınlarının qarnı yarılacaq».

### *Rəbbin İsrailə müraciəti*

14 1 Allahın Rəbbə üz tut, ey İsrail,
Çünki günahlarından ötrü büdrədin.
2 Dua sözləri ilə Rəbbə tərəf dönün.
Ona belə deyin:
«Hər qəbahətimizi bağışla,
Bizi mərhəmətlə qəbul et.
Buğalar yerinə ağzımızdan çıxan
Şükürləri təqdim edirik.
3 Aşşur bizi xilas etməyəcək,
Atların belinə minməyəcəyik,
Artıq əl işlərimizə
“Allahlarımız” deməyəcəyik.
Çünki yetim səndən mərhəmət görəcək».

4 «Onların dönüklüyünə əlac edəcəyəm,
Onları ürəkdən sevəcəyəm,
Çünki qəzəbim onlardan vaz keçdi.
5 Mən İsrailə bir şeh olacağam,
O, zanbaq kimi çiçək açacaq,
Livan sidri kimi kök atacaq.
6 Qollu-budaqlı olacaq,
Zeytun ağacı kimi gözəl olacaq,
Livan sidri kimi ətir saçacaq.
7 Adamlar yenə də kölgəsi altında oturub
Buğda kimi cücərəcək,
Meynə kimi tumurcuqlayacaq,
Şöhrəti Livan şərabı kimi olacaq.
8 Efrayim deyəcək:
“Artıq bütlər nəyimə gərəkdir?”
Mən onun səsini eşidəcəyəm,
Ona nəzər salacağam.
Mən həmişəyaşıl şam kimiyəm,
Sənin bar verməyin Məndən gələcək.

9 Kim müdrikdirsə, bu sözləri dərk etsin,
Kim dərrakəlidirsə, bunları başa düşsün.
Çünki Rəbbin yolları düzdür.
Salehlər o yollarla gedir,
Ancaq asilər o yollarda büdrəyir».